

# Qürbət cənnət olsa da...

Son iki əsrdə Azərbaycanın tarixi torpaqları olan Qərbi Azərbaycanda - indiki Ermənistan ərazisində aparılmış etnik təmizləmə siyasəti ilə soydaşlarımız zaman-zaman deportasiya və soyqırımlara məruz qalıblar. Bu, eyni zamanda həmin ərazilərdə Azərbaycan xalqının min illər boyu yaratmış və yaşamış dəyərlərin taleyini də təhlükə qarşısında qoymuşdur.



Ermənistanda Azərbaycan türklərinin izlərinin silinməsi və Qafqazda erməni məsələsinin tarixi kökü qədim dövrlərdən deyil, I Pyotrun Xəzəryanı yürüşündən sonra başlayıb. Bu haqda çar Rusiyasının Qafqaz siyasətindəki "erməni məsələsi" hətta böyük dövlətlərin monarxiyalarının yazışmalarında da əks olunmuşdur.

Çar Rusiyası həmişə ermənilərin Cənubi Qafqazda məskunlaşmasına çalışıb, xaricdən gətirilən haylar Qərbi Azərbaycanın münbit torpaqlarında yerləşdirilmiş, erməni vandallarına hər cür şərait yaradılmış, həmişə gizli yollarla onlara silah ötürülmüşdür. Azərbaycan xalqının tarixi yurd yerləri olan Qərbi Azərbaycan torpaqlarının erməniləşdirilməsi Sovet dövründə daha açıq və amansız həyata keçirildi. Bütün beynəlxalq hüquq və normalara zidd olaraq həyata keçirilən deportasiya və etnik təmizləmələr XX əsrdə insanlığa qarşı törədilən ən ağır cinayətlər sırasındadır. Qeyd etmək lazımdır ki, SSRİ Nazirlər Şurasının azərbaycanlıların deportasiyası ilə bağlı qərarından əlavə, Ermənistan Sosialist Respublikası ardıcıl olaraq 1956-1957, 1965, 1967, 1968-ci illərdə də buna bənzər qərarlar qəbul etmiş və bu qərarlar qısa müddət ərzində icra edilmişdir.

Ermənilər I Dünya müharibəsi dövründə daha da fəallaşdılar. "Daşnaksütyun" partiyası tərəfindən hələ 1912-ci ildə yaradılmış "Erməni milli



bürosu" ermənilərin Rusiya tərəfindən müharibədə aktiv iştirak etməsi üçün geniş kampaniya başlatdı. "Milli büro"nun tərkibinə Tiflis erməni burjuaziyasının rəhbəri yepiskop Mosrop, Daşnak partiyasının aktiv üzvü A.Xatsov, Ermənistan Nazirlər Sovetinin sədri S.Karapetyan daxil idi. Ermənistana qayıtmağa məcbur olmuş didərgin azərbaycanlılar üçün bu büro faciə idi. Azərbaycana köçürülmüş Qərbi azərbaycanlıların salamat qalanlarının təqribən 40-45 faizi doğma yurdlarına qayıtmışlar.

Bu köçürülmə prosesi xaricdən gələn erməniləri yerləşdirməklə əlaqələndirilsə də, əsas məqsəd azərbaycanlıları Ermənistandan təmizləmək idi. Bu faciəli deportasiya dövründə Ermənistan ərazisində vaxtilə azərbaycanlıların yaşadıqları yüzlərlə kənd xarabalığa çevrilmişdir. Ermənistan KP MK-nın 1975-ci il yanvar plenumunda göstərildiyi kimi 476-dan çox kənd istifadəsiz qalmışdır.

Soydaşlarımızın Qərbi Azərbaycandan qovulmasının növbəti mərhələsi 50-ci illərin sonlarından başladı. Bu dövrdən 1988-ci ilə qədər olan deportasiyanı məcburi sıxışdırma da adlandırmaq olar. Bu illərdə əhalinin köçməsi pərakəndə olmuşdur.

Respublikada azərbaycanlıların oxuduqları ali məktəblər, texnikumlar, mətbuat orqanları kütləvi surətdə bağlandı. İrəvan Pedaqoji İnstitutunun 4 Azərbaycan dilli fakültəsi bağlanıb, cəmi 25 nəfərlik qrup təşkil edildi. 1925-ci ildən fəaliyyət göstərən Azərbaycan dili İrəvan Pedaqoji Texnikumu ləğv edilərək Azərbaycan SSR-in Göygöl rayonuna köçürüldü.

Bu kimi tədbirlər nəticəsində hər il Ermənistanda Azərbaycan məktəblərini bitirən orta hesabla 5000 nəfər abituriyent təhsilini davam etdirmək üçün respublikadan kənarda SSRİ-nin digər respublikalarına, xüsusən Azərbaycana gedirdi.

1960-cı ildən başlayaraq Ermənistanda rəhbər vəzifələrdə olan azərbaycanlıların hamısı (Amasiya rayonu istisna olmaqla) Basarkeçər, Krasnoselo, Qarabağlar, Zəngibasar, Vedi rayonlarında rayon partiya komitələrinin birinci katibləri ermənilərlə əvəz olundu.

Azərbaycan xalqının qəddar düşməni, cəllad Andranikin anadan olmasının 100 illiyi üçün Anastas Mikoyanın köməyi ilə Moskvadan razılıq alındı. Bu, 1965-ci ildə uydurma "Erməni genosidinin 50 illiyi" ilə bir dövrə təsadüf etdi. Həmin il aprelin 23-də İrəvan şəhərində 400 minlik nümayiş keçirildi. Bu nümayişdəki sərsəm çıxışlar və əllərdə tutulmuş "Dağlıq Qarabağ bizimdir", "Naxçıvan Ermənistanın torpağıdır", "Ermənilər 1915-ci ilin qisasını almaq üçün birləşək" kimi plakatlar Daşnaksütyunun fürsət gözlədiyini göstərirdi.

1970-1980-ci illərdə artıq SSRİ getdikcə zəifləyirdi. Xalq arasında kommunizm utopiyasına inam azalırdı. İllərdən bəri formalaşmış inzibati amirlik sistemi artıq iflic vəziyyətinə düşmüşdü. Erməni şovinistləri belə bir fürsəti əldən vermədilər, M.Qorbaçovu ələ aldılar və nəticədə 300 minə yaxın soydaşımızın Qərbi Azərbaycandan deportasiyasına nail oldular.

Bu gün dünyanın müxtəlif ölkələrinə səpələnmiş Qərbi azərbaycanlılar kimi yurd itkisi məni də sıxır. Axşam-sabah ayaq izlərim qalan yurd yerlərini düşünürəm, o torpağın hər qarışında xatirələrim var.

Uzun illərdir ki, Tatarıstan Respublikasında yaşayıram, ayrı-ayrı illərdə neft emalı zavodunda direktor müavini, baş mühəndis, direktor vəzifələrində çalışmışam. Yaxşı işimin müqabilində diplomlara və "Fəxri neftçi" medalına layiq görülmüşəm. Azərbaycan diasporunun təşəkkül tapmasında əlimdən gələn hər şeyi edirəm.

2022-ci ilin sonunda yaşadığımız şəhərdə Qərbi azərbaycanlıların cəmiyyəti təşkil olunmuşdur. Biz tez-tez tədbirlər keçirir, Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının reallaşması üçün məqsədyönlü iş aparırıq. İnanıram ki, yurd həsrəti soydaşlarımız kimi mənim də arzularım çin olacaq, elimə-obama dönəcəyəm. Atalar məsəli var: "Qürbət cənnət olsa da, yenə Vətən yaxşıdır".

**Möhtərəm ABBASOV,**
**Tatarıstan Respublikasının Kazan şəhərində iş adamı.**